# *Mənimdir, Vətən*



*Yunis Qaraxanov*

Biz ayrılmamışıq, biz
bölünməmişik,
O tayın da, bu tayında
mənimdir, Vətən!
Biz Koroğlu nəsliyik,
biz ölməmişik,
Harayın da, hayında  mənimdir, Vətən!

İrəvanın, Borçalın, Təbrizin, Şuşan,
Sənin qarış-qarış hər torpağın daşın,
Sənin hər bir dağın, hər bir meşən,
Sənin hər bir çayın da mənimdir, Vətən!

Sənin Babək cüssəli ərənlərin var,
Bu torpaq uğrunda ölənlərin var,
Neçə Mübarizlərin, Anarların var,
Ah-nalən də, vayın da mənimdir, Vətən!

Sənin xoş gələcəyin, gözəl yazın var,
Sənin tarın, kamanın, telli sazın var,
Düyünün də, toyun da mənimdir, Vətən!